BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2014*

# HÜQUQ

UOT 343

## HÜQUQİ DÖVLƏT ŞƏRAİTİNDƏ AZADLIQDAN MƏHRUMETMƏ NÖVÜNDƏ CƏZANIN İCRASINA DAİR MÜLAHİZƏLƏR

**F.Y.SƏMƏNDƏROV**
***Bakı Dövlət Universiteti***

*Hüquqi dövlət şəraitində rejim qaydalarına riayət etməklə məhkumların islah-tərbiyə işinə cəlb edilməsini yeganə vasitə saymaq olmaz.*

*Məhkumlarla islah-tərbiyə işinin aparılması, ictimai faydalı əməyə cəlb etməklə, tərbiyəvi təsir göstərməklə, habelə məhkumlara orta təhsil verməklə onları maarifləndirmək, eləcə də defisit peşələr üzrə peşə təhsili verməklə, onların hüquq düşüncəsini dərinləşdirmək olar.*

**Açar sözlər:** cəza çəkən məhkum, məhkumun islah edilməsi, məhkumların rejim qaydaları, məhkumlara tərbiyəvi təsir göstərilməsi, məhkumların orta təhsili və peşə təhsili, məhkumların əməyə cəlb edilməsi

Orta əsrlərdə habelə müstəmləkəçilik dövründə cinayətə görə tətbiq edilən cəzalardan cinayət törədənlərin cismani varlığına zərər yetirmək vasitəsi kimi istifadə edilirdi. Cəza ilə məhkumun sağlamlığını pozma ənənəvi məqsəd sayılırdı. Çox vaxt zərərçəkənə yetirilən ziyan unudulurdu. Cinayət törədənlə zərərçəkən barışdırılırdı, yaxud da barışdırılmağa səy edilirdi.

Ancaq intibah dövründə dünyanın işıqlı mütəfəkkirləri D.Monteskyenin, Volterin, Ç.Bekkariya, A.Feyerbax, D.Qovard və digərləri cəzanın humanistləşdirilməsi uğrunda mübarizə aparmışlar. Onlar insan hüquqlarının qorunması, xüsusən azadlıqdan məhrum edilən məhkumların, onların səhhətinin qorunmasını zəruri saymışlar, cəza sisteminin, xüsusən azadlıqdan məhrumetmə növündə cəzanın icrasında bir səliqə-sahman yaratmağa yönələn qiymətli fikirlər irəli sürmüşlər (1, 244).

XIX əsrin sonunda pozitivizmin inkişafı ilə tibbi-sosioloji terapiya təlimi inkişaf etmişdir. Bu təlim azadlıqdan məhrumetmə yeri «klinik reabilitasiya yerinə çevirmək təklif edilmişdir.

Hüquqi dövlətdə cəzanın icrasının xüsusən azadlıqdan məhrumetmə növündə cəzanın müddətinin adətən məhdudlaşdırılması meyli vardır. Məsələn

AFR-nın federal konstitusion məhkəməsi 21 iyun 1977-ci il tarixli qərarı ilə hüquqi dövlət prinsipinə söykənərək, ömürlük azadlıqdan məhrumetmə cəzasının müəyyən hissəsinin şərti məhkumetmə ilə əvəz edilməsi tələbini qoymuşdur. Nə qədər ki, resosializasiya cəzanın məqsədi kimi – ömürlük azadlıqdan məhrumetməyə məhkum edilmiş şəxsin azadlıq əldə etmək şansını nəzərdə tuturdu (2, 166-167).

Lakin azadlıqdan məhrumetmə özündə zərərli nəticələri nəzərdə tutur. Belə nəticələri aşağıdakı kimi səciyyələndirmək olar:

– Məhbus öz əhatəsindən təcrid edilir. Məhbus cinayət törətdiyi mühitdən onun resosializasiyasına təsir göstərə biləcəyi əhatədən məhrum olur;

– Məhbusu cəzaçəkmə yerində məcburi məskunlaşdırma, onun özünə qiymət verilməsinə güclü təsir göstərir. Məhbus təcrid edildiyi yerdə alçaldılır; ona mənəvi damğa vurulur. Bu da məhbusun azadlıqdan məhrumetmə yerlərindən azad edildikdən sonra, onun cəmiyyətə qayıtması işində ciddi çətinlik yaradır.

Bunun üçün arzu ediləndir ki, məhkum nisbətən sosial rola uyğunlaşsın. Məhkumun yeni həyat meyllərinə istiqamətlənməsinə stimul yaradılmalıdır. Məhkumda ictimailəşmə dinamik özünütənqid şəraitində baş verməlidir. Belə sosializasiya eyni zamanda məhkumun mədəni səviyyəsinin təkamülünə təsir göstərsə də, lakin onun sosial- psixoloji mexanizmini tam əhatə etmir. Cəza icra müəssisələrinin divarları arasında mövcud azadlıq üçün bu kifayət deyildir (3, 85).

Cinayətə yol verən məhbus həbsxanada cəmiyyət üçün görünməz olur.

Əslində baş verən cinayət məhbusun sosial və şəxsi problemləri ilə bağlıdır. Cəmiyyət məhkumun cinayətinin bağlı olduğu problemlərin həllindən məhrum olur. Cinayətlə bağlı olan zərərli sosial amillər aşkar edilsə də, aradan qaldırılmır.

Dünyanın bəzi inkişaf etmiş ölkələrində (məsələn, Kanadada, Avstraliyada və s.) hüquqi islahatları həyata keçirmək üzrə fəaliyyət göstərən komissiyalar belə fikirdədir ki, gələcəkdə azadlıqdan məhrumetmə növündə cəzanın tətbiqi məhdudlaşdırılmalıdır.

Azadlıqdan məhrumetmə cəzası üç halda tətbiq edilməlidir:

1) Təhlükəli cinayətkarlara (məsələn terrorçulara). Belələrindən qorunmaq üçün dövlət onlar barəsində azadlıqdan məhrumetmə növündə cəza tətbiq etmək məcburiyyətində qalır.

2) Xüsusən ağır cinayət törədən şəxslərə (məsələn, dövlətə xəyanət, dövlət sirrini yayma və s.) Belə şəxslərin əməllərilə mübarizədə dövlət maddi və mənəvi dəyərlərin qorunmasında vətəndaşların hüququ şüuruna söykənərək azadlıqdan məhrumetmə növündə cəzanın tətbiqini məqbul sayır.

3) Əgər cinayət törədənə nisbətən yüngül cəza təyin edilmirsə, yaxud da ona şərti məhkumetmə təyin edilmişsə, yaxud da məhkum onun üzərinə qoyulan əlavə öhdəçilikləri yerinə yetirmirsə, belə şəxslər barəsində şərti məhkumetmə ləğv edilir azadlıqdan məhrum etmə təyin edilir.

Hüquqi dövlətdə cəzanın icrasına humanist meyllərlə yanaşma xarakterikdir.

Bununla belə azadlıqdan məhrumetmə özündə zərərli nəticələr doğurur və belə nəticələr aşağıdakı kimi səciyyələnir:

1. Məhbus yaşadığı sosial mühitdən təcrid edilir. Məhkumun törətdiyi cinayətin mövcud olduğu məkan unudulur. Halbuki cinayətin baş verdiyi mühit, onun mexanizmi məhbusun resosializasiyasında nəzərə alınmalıdır. Məhbus həbsxana şəraitinin, tez-tez dəyişməsi ilə keçmiş mühitlə xüsusən ailəsi ilə, peşəsi ilə əlaqəsini itirir.

2. Həbsxanada məskunlaşdırılan məhbusun güclü formada özünə riayət verməsi dəyişir. O, yeri gəldikdə alçaldılır, ona mənəvi damğa vurulur – belə vəziyyət cəzadan azad ediləndən sonra məhkumun normal cəmiyyətə qayıtmasına ciddi surətdə mane olur.

3. Cinayət törədənin həbsxanadan təcrid edilməsi, cinayətkarlığın onda formalaşdırdığı cəmiyyət qrupunun sosial və şəxsi problemləri görünməz olur. Məhbusa təsir göstərən və onda meyl yaradan zərərli sosial vərdişlərin aşkar edilməsinə və neytrallaşdırılmasına səy göstərilir.

Bu səbəbdən də dünyanın bəzi qabaqcıl ölkələri (Kanada, Avstraliya) azadlıqdan məhrumetmə kimi cəzanın tətbiqini gələcəkdə məhdudlaşdırmağını nəzərdə tuturlar. Bu təkcə inkişaf etmiş transmilli dövlətlərin problemi deyil, həm də beynəlxalq təşkilatların problemidir. Məsələn, Avropa Şurası azadlıqdan məhrumetmə cəzasının məhdudlaşdırılmasına alternativ yanaşmanın sınaqdan keçirilməsi üzrə təklif vermişdir.

BMT özünün 1980-ci il 25 avqustdan sentyabrın 5-nə qədər cinayətkarlıq problemi ilə mübarizə üzrə 6-cı konqresində (konqres Venesuelada Karakas şəhərində keçirilmişdir) azadlıqdan məhrumetmə cəzasının icrası üzrə zəmanət qəbul edilmişdir. Bununla bağlı ABŞ-ın Milli Şurasına cinayətkarlıqla mübarizə üzrə yardım idarəsi yaradılmışdır.

1975-ci ildə azadlıqdan məhrumetmə yerlərində ancaq təhlükəli cinayətkarların saxlanması təklifi verilmişdir.

Azadlıqdan məhrumetmə cəzasının dairəsinin maksimum məhdudlaşdırılması ilə yanaşı, həm də azadlıqdan məhrumetmə yerlərində cəzanın icrasının düzgün təşkili üzrə bir sıra zəruri şərait yaradılmalı və ondan istifadə qaydalarına riayət edilməlidir. Bunlara aşağıdakılar aid edilir:

1) kifayət qədər köhnəlmiş, bu gün üçün yarasız vəziyyətdə olan həbsxanalar ləğv edilməli, onlar yeni yaradılan azadlıqdan məhrumetmə yerlərində «rahat» həyat şəraiti olan müasir dünyanın standartlarına uyğun gələn əməkdaşlara, həm də məhbuslara həbsxanalar tikilməlidir;

2) azadlıqdan məhrumetmə yerlərində məhbuslarla, onların resosializasiyası işi təşkil olunmalıdır. Tərbiyəvi tədbirlərin aparılması könüllü xarakterdə olmalıdır. Belə şəraitdə cəzanın icrası məhkumun resosializasiyasına istiqamətlənməli, məhkumların şəxsiyyəti öyrənilməli, hər bir məhkumun şəxsiyyətini xarakterizə edən informasiyalar məhkuma tərbiyəvi təsir tədbirlərinin həyata keçirilməsində və kriminoloji tədqiqatların aparılmasında istifadə edilməlidir;

3) hüquqi dövlətin prinsiplərinin həyata keçirilməsində azadlıqdan məhrumetmə yerlərində cəza çəkən məhkumlar arasında qarşılıqlı əlaqələri daha səlahiyyətli yüksək olan orqanların nəzarəti və müşahidəsi altında olmalıdır.

Məhbusların əməyi özündə məqsəd deyildir. Əmək məhbusları azadlığa çıxdıqdan sonra onlar həyata hazırlanmalıdır. Belə hazırlıq o halda mümkün olur ki, həbsxana yaxud cəza icra müəssisəsi yüksək əmək alətləri ilə təchiz edilmiş olsun. İstehsalatda işlədilən maşınlar və istehsal alətləri saz vəziyyətdə olmalı, məhbuslarda yeni istehsal qabiliyyəti formalaşmalıdır. Məhbuslara mövcud müəssisələrdə az təsadüf edilən peşələr öyrədilməlidir. Bu da onlar azad olduqdan sonra əmək bazarında onların böyük şansları yaranır.

Məhbusların əməyinə cəza kimi baxmaq olmaz. Əmək məhbusların saxlanması xərclərini azaltmaq üçün deyil, əməyə onların resosializasiyasına xidmət edən amil kimi baxılmalıdır. Əməklə tərbiyə məhkumda əmək vərdişləri yaratmağı nəzərdə tutur. Bununla bərabər əməklə tərbiyə, təhsillə müqayisədə nisbətən az effektli amildir.

Bütün bunların əsasında belə ideal təsəvvür durur – məhbusa elə təsir göstərilməlidir ki, bunun nəticəsində o, özünün peşəsinə və əməyinə münasibəti düzgün mənimsəmiş olsun. Buna görə də, peşə və əmək məhbusun sosial inteqrasiyasına kömək edir və nəzarət amili kimi təsir göstərir.

Məhbusların təhsilinə nə qədər daha çox diqqət yetirilirsə bir o qədər onların arasında residiv cinayətlər azalır.

Tərbiyəvi təsir – yaşayış və əmək şəraiti ona istiqamətlənir. Həbsxanada əlverişli sosial mühit yaradılır. Məhkum azadlığa çıxandan sonra da onu belə mühit düşündürməlidir. Həbsxana mühitindəki şərait məhbusun mədəni səviyyəsinin yüksəlməsinə kömək etməlidir (4, 372).

Düzgün yaşayış və əmək şəraiti yaxşı istirahətə kömək edir, məhbusun əmək və yaradıcı qabiliyyətini bərpa edir. Ümumiyyətlə, həbsxana həyatının birtonlu və eyni görüşü qaydaları dağıdılmalıdır.

Tənhalıq və qeyri-müstəqillik onlara əzici təsir göstərir. Televiziya verilişləri məhbusların davranışına əhəmiyyətli təsir göstərir. Məhbuslar hər gün həbsxana həyatında və dünyada baş verənləri qəbul etməlidir.

Düzgün təşkil olunmuş əlverişli yaşayış şəraiti yaxşı istirahətə və məhkumun fiziki və psixi gücünün bərpa olunmasına kömək etməlidir.

**Tərbiyəvi təsirin modeli**

Tərbiyəvi təsir ona istiqamətlənir ki, dövlətin müdaxiləsi ilə sosial baxımdan məqsədəuyğun olmayan davranış neytrallaşdırılır.

Bu məqsədə xidmət edən metodlar – məsələn, məhkumun peşə hazırlığının həyata keçirilməsi, müntəzəm ardıcıllıqla psixi və sosial təsirlər könüllü fərdi və qrup psixoloji terapiya təsir tədbirlərini reallaşdırmağa kömək edir.

Cəzanın tətbiqi ilə həyata keçirilən tərbiyəvi tədbirlərdən nisbətən daha məhdud modelli xarakter daşıyan aşağıdakı istiqamətləri nəzərdə tutur:

1. Cinayət məhkumun şəxsiyyətinin quruluşu ilə (onun şəxsiyyətinin psixopatoloji yaxud psixoanalitik xüsusiyyətləri ilə) bağlı olduğundan cinayətin törədilməsi fərdi potalogiya ilə cinayət törədənin şəxsiyyətinin quruluşunda baş verən statistik yaxud dinamik pozuntu ilə meydana gəlir.

2. Məhkumun fərdi psixoloji və psixoatrik müayinə etmələr və terapiya

ilə bu model şəxsiyyətin quruluşunda pozuntunu aradan qaldırmanı təmin edir və bununla cinayətkarın resosializasiyası baş verir.

3. Psixoloji və psixatrik fərdi müayinə təkcə cəzanın icrasını humanistləşdirmək üçün deyil, həmdə residivin qarşısını almağa xidmət edir, onun başvermə ehtimalını azaldır (5, 408-409).

Bu modelin köməyi ilə həbsxanada elə mühit yaradılır ki, bu mühitin köməyi ilə məhbusları (onları inandırmaqla, yaxud sosial təzyiq göstərməklə, belə bir bəhanə ilə ki, əgər sosializasiya sahəsində müəyyən uğurları olarsa, onun cəzadan azad edilməsinə yardım ediləcəkdir) belə təzyiq göstərməyə razı salınır.

Hazırkı vəziyyətdə hüquq pozuntusuna yol verən məhbusa təzyiq göstərmək hüquqi dövlət şəraitində dörd halda məqbul sayıla bilər.

1. Məhbus dövlət müdaxiləsinə qədər (yəni şəxs məhkum edilənə qədər) tərbiyəvi təsirə məruz qalmalıdır.

2. Məhbusa tətbiq edilən tərbiyəvi təsir, könüllü xarakter daşımalıdır. Məhkumu sadəcə təsir obyekti etmək məqbul sayılmır. Məhkumun tərbiyəvi təsirdən imtina etməsi, onun barəsində mənfi nəticələr doğurmamalıdır.

3. Cinayət törədən şəxs tərbiyəvi təsirə məruz qalmağa razı olduqda, digər məhkumlarla müqayisədə onun vəziyyəti pisləşməməlidir. Cinayətə yol verən şəxsə göstərilən tərbiyəvi təsir, ona heç bir zərər yetirməməlidir.

4. Fərd proyektdə iştirak etmək istəmirsə, yəni hüquq pozuntusuna yol verən şəxsə göstərilən tərbiyəvi təsir vaxtında ona izah edilməli, onun faydası, belə terapiyanı qəbul etməkdə məruz qaldığı riskin faydası ona izah edilməlidir.

Azadlıqdan məhkumetmə yerlərində məhbuslara göstərilən tərbiyəvi təsirlərin uyğunsuzluğu əsas etibarilə üç amillə (səbəblə) bağlıdır.

Birincisi, məhbusun məskunlaşdığı yerlə bağlıdır. Onlar totalitar rejimdə yaşayırlar. Onlar boş vaxtlarını, eləcə də gecə istirahətlərini bütün digər məhbuslarla bir yerdə keçirmirlər. Onların bütövlükdə fəaliyyəti qaydalarla tənzim edilir. Məhbusların ailə ilə, iş yeri üzrə yoldaşları ilə habelə keçmiş dostları ilə əlaqələri, yaşadıqları və işlədikləri total müəssisədən kənarda qalır. Onların bir səlahiyyətləri qalır – cəzaçəkmə yeri hüdudlarında verilən göstəriş və sərəncamları yerinə yetirmək.

İkincisi, cəza çəkmə müəssisələrindəki həyata qədər, məhkumun ailə ilə, yaxın yoldaşlarla, işlədikləri dostlarla və b. ilə əlaqələri zəifləyir və daha dəqiq desək, əlaqələrə son qoyulur. Məhkumun bir funksiyası – göstərişlərə riayət etmək qalır. Məhbus öz iradəsi ilə heç bir fəaliyyətə yol verə bilməz.

Zaman keçdikcə məhbus həbsxana həyatına vərdiş edir (6, 25).

Üçüncüsü, məhkum azadlıqdan məhrumetmə yerinə məskun edildikdən sonra, tədricən o, cəza çəkmə yerinə vərdiş etməyə başlayır. Belə proses getdikcə dərinləşir. Həbsxanadakı adətlərə və vərdişlərə, habelə «dəyərli» meyllər formalaşmağa başlayır. Belə proseslər neqativ xarakterli sosializasiya prosesidir. Bu proses daha çox məhkumun şəxsiyyətində deqradasiya baş verir ki, belə deqradasiya məhkumun şəxsi ləyaqət hissini zəiflədir, onun cinayətkar «hörməti» yüksəlir.

Belə məhkumlar cəzadan azad olduqdan sonra onların ailəyə uyuşması ciddi çətinliklə bağlı olur. Onların ixtisas üzrə iş tapması son dərəcə çətin olur.

### ƏDƏBİYYAT


1. Беккария С. О преступлениях и наказаниях. М.: 1939
2. Кудрявцев В.Н.Стратегии борьбы с преступностью. М.: Юристь, 2003
3. Алферов Ю.А. Пенитенциарная социология и перевоспитание осужденных. Домодедово, 1994
4. Брунер Дж. Психология познания. М., 1977
5. Гапс Йохит Шнайдер. Криминология. М.: Прогресс, 1994
6. Кристи Н. Борьба с преступностью как индустрия. Пер. с Норвежского. М.: 2001, с.15


## РАЗМЫШЛЕНИЯ ОБ ИСПОЛНЕНИИ НАКАЗАНИЯ В ВИДЕ ЛИШЕНИЯ СВОБОДЫ В УСЛОВИЯХ ПРАВОВОГО ГОСУДАРСТВА


**Ф.Ю.САМАНДАРОВ**


### РЕЗЮМЕ


В условиях правового государства нельзя считать соблюдение осужденными правил режима отбытия наказания в виде лишения свободы единственным исправительно-воспитательным средством. Проведение с осужденными исправительно-воспитательных работ, привлечение их к общественно полезному труду, а также их просвещение путем получения ими среднего образования, профессиональное обучение по востребованным специальностям будут способствовать углублению их правового мышления.



**Ключевые слова:** осужденный, отбывающий наказание, исправление осужденного, правила режима осужденных, воспитательное воздействие на осужденных, среднее и профессиональное образование осужденных, привлечение осужденных к труду


## REFLECTIONS ON THE EXECUTION OF A SENTENCE OF IMPRISONMENT UNDER THE RULE OF LAW


**F.Y.SAMANDAROV**


### SUMMARY


In the context of the rule of law, compliance with the rules of the regime convicts serving the sentence of imprisonment cannot be considered the only correctional educational tool. Correctional and educational work with the convicted, their involvement in socially useful work, as well as getting secondary education will help deepen their legal thinking.



**Keywords:** convicts; correction of the convict; educational influence on the convicted; secondary and vocational education of convicts; involvement of convicts in work